AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
# Fakültə: İqtisadiyyat və idarəetmə

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri: i.f.d., dos. E.Q.Məmmədov**
**12 sentyabr 2025-ci il**

## "SOSIAL İŞİN NƏZƏRİYYƏSİ VƏ TƏCRÜBƏSİ-1" fənni üzrə

## İŞÇİ TƏDRİS PROQRAMI

## (Sillabus)

**I. Fənn haqqında məlumat**

| | |
|---|---|
| **Fənnin kodu:** | 00044 |
| **Fənnin növü:** | əsas |
| **Tədris ili:** | 2025/2026 |
| **Fənnin tədris semestri:** | payız |
| **Fənnin tədris forması:** | əyani |
| **Tədris dili:** | Azərbaycan |
| **Fakültə:** | İqtisadiyyat və idarəetmə |
| **Qrup(lar):** | 209, 210, 211, 212 |
| **Tədris yükü:** | 60 saat (30/30) |
| **Kredit sayı:** | 7 |
| **Kafedra:** | "İctimai idarəetmə və sosial innovasiyalar" |

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** *i.ü.f.d., dos. Elşən Məmmədov*

**E-mail ünvanı:** memmedov.elshan@mail.ru

**İş telefonu:** 012-564-37-05

**Tələbələr üçün qəbul vaxtları:** I, IV, V günlər 14.00-16.00-dək

## III. Fənnin təsviri

«**Sosial işin nəzəriyyəsi və təcrübəsi-1**» fənninin mövzuları sosial işin tətbiqi əsasını təşkil edən nəzəriyyələri, problemlərə elmi və peşəkar bilik yanaşması ilə müdaxilə etmək məsələlərini özündə ehtiva edir.

Bu gün dünyanın sosial, iqtisadi və mədəni həyatındakı sürətli dəyişikliklər bir çox peşələrdə olduğu kimi sosial iş peşəsinin konseptual və nəzəri infrastrukturunda da sürətli dəyişikliklərə səbəb olur. Bütün dünyada işsizlik, yoxsulluq, qaçqın və köçkünlük, müharibələr, iqlim dəyişikliyi, insan alveri ilə əlaqəli problemlər, yaşlılar, qadınlar və uşaqlara qarşı şiddət, baxımsızlıq və istismar halları artmaqdadır. 1900-cü illərin əvvəllərində Qərbi Avropa və ABŞ-da yaranan sosial iş peşəsi, 2000-cı illərdən başlayaraq ölkəmizdə də elmi təməllərini qoymağa başladı.

Sürətlə inkişaf edən və dəyişən cəmiyyətin üzləşdiyi sosial problemlərin elmi həllinə doğru addımların atılması şübhəsiz bir zərurətə çevrilmişdir. Bir peşə intizamı özünü inkişaf etdirmək istəyirsə, ictimai quruluşdakı dəyişikliklərdən və digər fənlərdəki yeniliklərdən asılı olaraq özünü mövcud şərtlərə və ehtiyaclara uyğunlaşdırmalıdır. Bu çərçivədə sosial iş elminin ortaya çıxmasından bu günə qədər onun peşəkar əsasını təşkil edən nəzəriyyələr bu fənnə daxil edilmişdir.

Sosial iş nəzəriyyələrini tanıtmağı hədəfləyən bu fənn 15 mövzudan ibarətdir. Hər mövzu fərqli bir nəzəriyyə və sosial işə müdaxilə planına verdiyi töhfələr nəzərə alınaraq hazırlanmışdır. Bu fənn sosial iş təhsilinin əsasını təşkil edən nəzəri biliklərin olması baxımından əhəmiyyətlidir.

Sosial işin elmi şəkildə tətbiqi yolu, peşə müdaxiləsi planının əsasını təşkil edən nəzəriyyələri bilmək, onları özündə cəmləşdirmək və sahələrdə tətbiq etməklə bağlıdır.

## IV. Fənnin məqsədi və vəzifələri

Sosial işin əsas fəlsəfəsi problem həll etmə prosesinə yönəlməkdir. Bu məqsədə uyğun olaraq müştərilərə və ya sosial işə müdaxilə mərhələlərini hansı metod və üsullarla və necə tətbiq olunduğunu öyrətmək məqsədi daşıyır. Bu mərhələlər mikro (fərdi), mezzo (qrup) və makro (cəmiyyət) səviyyələrdə məlumat toplamaq, problemi müəyyənləşdirmək, planlaşdırma prosesi, müdaxilə fəaliyyət

planı yaratmaq, lazımi müdaxilələr etmək və ya müdaxilələr nəticəsində xitam vermək, lazımi qiymətləndirmə aparmaqdır. Bu kurs nəticəsində tələbə "ümumi sosial iş təcrübəsi" çərçivəsində problemlərə müdaxilə prosesini öyrənəcək və müdaxilədə hansı metodlardan istifadə edilə biləcəyini müəyyənləşdirəcəkdir.

*Fənnin məqsədi*: Sosial işin nəzəri əsaslarını və ən vacib sosial problemlərin həlli üçün əsas texnologiyalarını bilən və həyatın müxtəlif sferalarında tətbiq etməyi bacaran peşəkar mütəxəssislər yetişdirməkdir.

Fənnin tədrisi qarşısında duran *vəzifələr* aşağıdakılardır:

· Sosial işin nəzəri əsaslarını öyrənmək;

· Sosial iş sahəsində yerli və beynəlxalq qanunvericiliyin inkişafını izləmək;

· Sosial işin təşkili ilə bağlı yerli və xarici təcrübə ilə tanış olmaq;

· Sosial iş sahəsində əsas yanaşmaları öyrənmək;

· Müxtəlif tipli və müxtəlif şöbələrə aid müəssisələrdə sosial iş texnologiyaları ilə tanış olmaq;

· Çətin həyat şəraitinə düşən əhalinin müxtəlif qrupları ilə sosial iş texnologiyalarını öyrənmək;

· Sosial iş sahəsində tədqiqat nəticələrinin təhlili və təqdimatında bacarıqların inkişaf etdirilməsi.

**V. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqların formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqlar həll edəcəklər.

**VI. Öyrənmənin nəticələri:**

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

➢ Sosial işin ümumi qəbul edilmiş anlayışa uyğun tətbiqinin nəzəri əsaslarını və prinsiplərini başa düşür.

➢ Sosial işin ümumi təcrübəsində istifadə olunan nəzəriyyələri və yanaşmaları bilir və istifadə edir.

- Ümumi sosial iş praktikasının fərdlər, qruplar və cəmiyyətlə əlaqəli müdaxilə səviyyələrini araşdırır (mikro, mezzo, makro müdaxilə), sosial iş biliklərinə əsaslanan nəzəriyyələri tətbiqetmə prosesləri ilə birləşdirir.
- Sosial iş sahəsindəki problemləri müəyyənləşdirmək, təyin etmək, şərh etmək, formalaşdırmaq və həll etməyi bacarır; bu məqsəd üçün uyğun analiz və müdaxilə yanaşmalarını seçmək və tətbiq etmək bacarığına malik olur.
- Sosial analiz, qiymətləndirmə və hesabat hazırlanması üçün müvafiq məlumatları ayırmaq və toplamaq bacarığı və bu sahədəki tədqiqat nəticələrini və peşəkar ədəbiyyatı şərh etmək bacarığı olur.
- Bütün səviyyələrdə müraciət edənlər üçün oxşar və fərqli cəhətləri nəzərə alaraq fərqin müsbət dəyərini qəbul edərək planlaşdırılmış dəyişiklik prosesini həyata keçirmək bacarığına malik olur.

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**<u>Bilməlidirlər:</u>**

- Sosial işin nəzəri əsaslarını, elm və peşə kimi inkişaf yolunu;
- Çətin həyat vəziyyətində olan fərdlər və qruplarla xarici sosial iş təcrübəsini;
- Sosial işin təşkilində müxtəlif yanaşmaları;
- Əhalinin müxtəlif qrupları ilə: yeniyetmələr, gənclər, qadınlar, əlillər, yaşlı insanlar və s. sosial iş texnologiyalarını;
- Müxtəlif təşkilat və müəssisələrdə: təhsil, səhiyyə, sosial müdafiə və sosial xidmətlər sahəsində sosial iş texnologiyalarını.

**<u>Bacarmalıdırlar</u>:**

- Sosial işin tədqiqat aparatını problemli sahələrinin öyrənilməsinə tətbiq etmək;
- Sosial iş sahəsindəki nəzəri biliklərdən istifadə edərək sosial qrupların ehtiyac və maraqlarını müəyyənləşdirmək, ərazi, regional və mərkəzi səviyyələrdə əhalinin müxtəlif qruplarına kömək üçün xüsusi proqramlar hazırlamaq;
- Rayonda, bölgədə, ölkədə sosial iş təcrübəsinin inkişafındakı əsas tendensiyaları təhlil etmək və proqnozlaşdırmaq;
- Sosial analiz və qiymətləndirmə aparmaq, hesabat hazırlanması üçün müvafiq məlumatları ayırmaq və toplamaq;
- Çətin həyat şəraitində olan insanların sosial problemlərinin həllinə, eləcə də sosial qrupların və icmaların maraqlarının əlaqələndirilməsinə yönəlmiş təklif və tövsiyələr hazırlamaq.

## VII. Prerekvizitlər

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

**Mövzu: 1.** Fənnə giriş
**Mövzu: 2.** Sistem nəzəriyyəsi
**Mövzu: 3**. Ekoloji yanaşma
**Mövzu: 4.** Gücləndirmə yanaşması
**Mövzu: 5.** Psixoanaliz nəzəriyyəsi
**Mövzu: 6.** Transaksional analiz
**Mövzu: 7.** Mövcudluq (existentialism) yanaşması
**Mövzu: 8.** Problem (vəzifə) yanaşması
**Mövzu: 9.** Gerçəklik terapiyası
**Mövzu: 10.** Gestalt yanaşması
**Mövzu: 11.** Böhran müdaxiləsi yanaşması
**Mövzu: 12.** Feminist yanaşma
**Mövzu: 13.** Fərdi yanaşma
**Mövzu: 14.** Quruluş (struktur) yanaşması
**Mövzu: 15.** İdraki davranış yanaşması

## IX. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, müzakirə sualları və tapşırıqlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## X. Əsas dərslik və ədəbiyyat

1. Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.
2. Duyan, V. (2010). Sosyal Hizmet Temelleri Yaklaşımları Müdahale Yöntemleri, SHU Derneği Yayını, Yayın No:16 Ankara: 2010 syf:2-26
3. Duyan, V., ve diğerleri. (2008). Sosyal Hizmeti Tanımak ve Anlamak: Sosyal Hizmet Uzmanları ve Sosyal Hizmet Alanında Çalışanlar İçin Bir Rehber, Öncü basım evi, Ankara.
4.Turan, N.(1999) Sosyal Kişisel Çalışma, Birey ve Aile İçin Sosyal Hizmet, Ed. Veli Duyan, Aydınlar Matbaacılık, Ankara.
5. Tuncay, T. ve İl, S. (2009). Sosyal Hizmet Uygulamalarında EmpatiyiYeniden Düşünmek, Toplum ve Sosyal Hizmet, 20(2): 39–56.

6. Zastrow C.H., Krist Ashman, K. (2014). İnsan Davranışı ve Sosyal Çevre. Ankara: Nika Yayınevi
7. Payne, Malcolm, (1997). Modern Social Work Theory. , MacMillan.
8. Dewees, M. (2006) Contemporary Social Work Practice.New York: McGraw-Hill Companies Inc.
9. Healy, K. (2000) Social Work Practice. London:Sage Publication.
10. Jones, K., B. Cooperand H. Ferguson. (Eds). (2008) Best Practice in Social Work Critical Perspectives. New York: Palgrave Macmillan Publication.
11. Akkoyun, F. "Trasnaksiyonel Analiz ve Yetişkin Olmak", http://dergiler.ankara.edu.tr/dergiler/40/490/5746.pdf.
12. Buz, S. (2009) "Feminist Sosyal Hizmet Uygulaması", Toplum ve Sosyal Hizmet, C. 20, S. 1, ss. 53-66.
13. Dale, O., Smith, R., Norlin, J.M. ve Chess, W.A. (2006). Human Behavior and the Social Envıronment Social Sistems Theory. Boston, USA: Allyn and Bacon.
14. Özgür, Ö. (2015) "Yapısal Kuram", Sosyal Hizmet Kuram ve Yaklaşımları, Atatürk Üniversitesi Açıköğretim Fakültesi Yayını, ss. 1-20.
15. Rapp, C. A., & Goscha, R. (2006). The strengths model: Case management with people with psychiatric disabilities (2nd ed.). New York: Oxford.
16. Akpınar, O., Öz Selda F. (2013).Gerçeklik Terapisi: Özellikler, Temel Kavramlar,Tedavi, Uygulama ve Değerlendirme Elektronik Sosyal Bilimler Dergisi Kış-2013 Cilt:12 Sayı:43 (001-022)

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

**FƏNN MÖVZULARI VƏ MƏQSƏDLƏR**

| Həftə | Mövzuların adları | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Fənnə giriş** | Fənnin proqramı ilə tanışlıq: kursun məqsədi, predmeti və vəzifələri. Bir elm və peşə olaraq sosial işin inkişafı. Sosial rifah dövləti anlayışı, mahiyyəti və formalaşma xüsusiyyətləri. Azərbaycanda da sosial işin elm və peşə sahəsi kimi inkişafı. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul. **2.** Duyan, V., ve diğerleri. (2008). Sosyal Hizmeti Tanımak ve Anlamak: Sosyal Hizmet Uzmanları ve Sosyal Hizmet Alanında Çalışanlar İçin Bir Rehber, Öncü basım evi, Ankara. |
| 2 | **Sistem nəzəriyyəsi (yanaşması)** | Sistem nəzəriyyəsinin yaranması və inkişafı. Sistem nəzəriyyəsinin əsas anlayışları: açıq sistem, qapalı sistem, entropiya və mənfi entropiya, sabit vəziyyət, əməliyyatlar. Sistem yanaşmasına görə işlərə müdaxilə prosesi. Sistem nəzəriyyəsi və sosial iş. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul. **2.** Dale, O., Smith, R., Norlin, J.M. ve Chess, W.A. (2006). Human Behavior and the Social Envıronment Social Sistems Theory. Boston, USA: Allyn and Bacon. |
| 3 | **Ekoloji yanaşma** | Ekoloji yanaşmanın yaranma səbəbləri. Ekoloji yanaşmanın əsas anlayışları: sosial mühit, əməliyyatlar, balans uyğunluğu, enerji, interfeys, sonlandırma, qarşılıqlı | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul. **2.** Zastrow C.H., Krist Ashman, K. (2014). İnsan Davranışı ve Sosyal |

| | | | |
|---|---|---|---|
| | | asılılıq. Ekoloji yanaşmanın sosial iş peşəsinə töhvəsi | Çevre. Ankara: Nika Yayınevi. |
| 4 | **Gücləndirmə yanaşması** | Imkanların genişləndirilməsi/ gücləndirmə yanaşmasının səbəbləri. Gücləndirmə yanaşmasında istifadə olunan anlayışlar: müştəriyə inanmaq, ünsiyyət və əməkdaşlıq, gücləndirmə, sağlıq və bütövlük, umudlu olmaq, üzv olmaq, plastiklik (şəkilləndirmə), elastiklik. Səlahiyyətləndirmə perspektivi prinsipləri. Sosial işçi gücləndirmə yanaşmasını necə tətbiq etməlidir? Sosial işçinin gücləndirmə yanaşmasına əsaslanan qiymətləndirmədə nəzərə almalı olduğu elementlər. Sosial işçi kimi müştərinin güclü tərəflərini kəşf etmək. Güclü tərəfləri qiymətləndirmə tədqiqatı. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Rapp, C. A., & Goscha, R. (2006). The strengths model: Case management with people with psychiatric disabilities (2nd ed.). New York: Oxford. |
| 5 | **Psixoanaliz nəzəriyyəsi** | İnsanın təbiəti: həyat instinktləri, ölüm instinktləri. Psixoanaliz nəzəriyyənin əsas fərziyyələri: topoqrafik model, struktur model, ego (mənlik) - müdafiə mexanizmləri, psixoseksual inkişaf mərhələləri. Psixoanaliz nəzəriyyənin sosial işə təsiri. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Corey, G. (2008). Psikolojik Danışma Kuram ve Uygulamaları (T. Ergene, Çeviren). Ankara: Mentis Yayıncılık. |
| 6 | **Transaksional analiz** | Əsas fərziyyələr. Əsas həyat mövqeləri: mən yaxşı deyiləm-sən yaxşısan, mən yaxşı deyiləm-sən yaxşı deyilsən, mən yaxşıyam-sən yaxşı deyilsən, mən yaxşıyam-sən də yaxşısan. Əlaqə vasitələri tələbi. Vaxtın təyini: geri çəkilmə, mərasimlər (stereotiplər), vaxt keçirmək, hadisələr, psixoloji oyunlar, səmimiyyət. Eqo vəziyyətləri: Valideynlik (Exteropsychic) ego vəziyyəti, yetkinlik (Neopsychic) eqo vəziyyəti, uşaq (Archaeo Psychic) ego statusu. Transaksional analiz növləri: tamamlayıcı transaksionlar, qapalı (çarpaz) transaksionlar, gizli transaksionallar. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Akkoyun, F. “Trasnaksiyonel Analiz ve Yetişkin Olmak”, http://dergiler.ankara.edu.tr/dergiler/40/490/5746.pdf. |
| 7 | **Mövcudluq (existentialism) yanaşması** | Fenomenoloji perspektiv. Mövcudluq (ekzistensializm) nedir? Mövcudluğun yaranma prosesi. Dasien (kainatda olmaq): Umwelt (Təbiət qanunları dünyası), Mithwelt (insan dünyası), Eigenwelth (şəxsin subyektiv dünyası). Mövcudluq yanaşmasının əsas prinsipləri. Mövcudluq yanaşmasının əsas anlayışları: insan təbiətinə baxış, terapevtik proses. Mövcudluq yanaşması və sosial iş. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Jones, K., B. Cooperand H. Ferguson. (Eds). (2008) Best Practice in Social Work Critical Perspectives. New York: Palgrave Macmillan Publication. |
| 8 | **Problem (vəzifə) yanaşması** | Vəzifə mərkəzli modelin əsas xüsusiyyətləri. Vəzifə mərkəzli modelin klinik tətbiqetmə mərhələləri: birinci mərhələ; rol, məqsəd və müdaxilə proseslərinin izahı, orta mərhələ; tapşırıq planlaşdırma və icra, son mərhələ; problemlərin həlli bacarıqları və nailiyyətlərin qiymətləndirilməsi. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Duyan V. (2010). Sosyal Hizmet: Temelleri, Yaklaşımları, Müdahale Yöntemleri. Sosyal Hizmet Uzmanları Derneği Yayın No: 16. Ankara. |
| 9 | **Gerçəklik** | Gerçək terapiyasının inkişafı. Əsas | **1.** Taner Artan (2015) Sosyal Hizmet |

| | | | |
|---|---|---|---|
| | **terapiyası** | anlayışlar: insan təbiətinə baxış, insanın əsas psixoloji ehtiyacları, həyatda qalma, sevgi və aid olma, güc, azadlıq, əyləncə, şəkil albomu, ümumi davranış, şəxsiyyət vəsiqəsi, məsuliyyət, iştirak, sevgi və dəyərli olmaq, reallıq, qazanc. Gerçəklik terapiyası və dörd zəncir. Gerçəklik terapiyasının xüsusiyyətləri. Gerçəklik terapiyasının əsasları. Gerçəklik terapiyasının tətbiqi texnologiyası və üsulları. Gerçəklik terapiyası və sosial iş. "WDEP" ("İYDP") Sistemi. | Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Duyan V. (2010). Sosyal Hizmet: Temelleri, Yaklaşımları, Müdahale Yöntemleri. Sosyal Hizmet Uzmanları Derneği Yayın No: 16. Ankara.<br>**3.** Akpınar, O., Öz Selda F. (2013).Gerçeklik Terapisi: Özellikler, Temel Kavramlar,Tedavi, Uygulama ve Değerlendirme Elektronik Sosyal Bilimler Dergisi Kış-2013 Cilt:12 Sayı:43 (001-022) |
| 10 | **Gestalt yanaşması** | Gestalt yanaşmasının tarixi inkişafı. Gestalt yanaşmasının əsas perspektivləri: mövcud perspektiv, fenomenoloji perspektiv, holism perspektivi. Gestalt müalicəsində əsas anlayışlar: insan təbiəti, gestalt yanaşmasının bəzi vacib prinsipləri, sahə nəzəriyyəsi (Feild nəzəriyyəsi), şəkil formalaşdırma prosesi, orqanizmin özü-özünü tənzimləməsi, mövcud zaman və fərqinə olmaq. Gestalt əlaqə formatları. Gestalt yanaşması və sosial iş. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Zastrow C.H., Krist Ashman, K. (2014). İnsan Davranışı ve Sosyal Çevre. Ankara: Nika Yayınevi. |
| 11 | **Böhran müdaxiləsi yanaşması** | Böhran müdaxiləsi yanaşmasının tarixi inkişafı. Böhran anlayışı və böhran növləri: böhran nədir?, böhran növləri. Böhran müdaxiləsi yanaşmaları: ümumi yanaşma, fərdi yanaşma, fərdi səviyyə böhran müdaxiləsi, qrup səviyyə böhran müdaxiləsi, makrosəviyyə böhran müdaxiləsi. Böhran müdaxiləsinin əsas prinsipləri. Robertsın yeddi mərhələli böhran müdaxilə modeli. Sosial iş və böhran. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Duyan V. (2010). Sosyal Hizmet: Temelleri, Yaklaşımları, Müdahale Yöntemleri. Sosyal Hizmet Uzmanları Derneği Yayın No: 16. Ankara. |
| 12 | **Feminist yanaşma** | Feminizmin mahiyyəti və formalaşması. Liberal Feminizm. Mədəni Feminizm. Mövcudluq Feminizmi. Marksist və Sosialist Feminizm. Radikal Feminizm. Ekofeminizm. Sosial iş və feminist yanaşma. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Buz, S. (2009) "Feminist Sosyal Hizmet Uygulaması", Toplum ve Sosyal Hizmet, C. 20, S. 1, ss. 53-66. |
| 13 | **Fərdi yanaşma** | Fərdi yanaşmanın inkişaf müddətində dörd dövr. Əsas anlayışlar. Fərdi yanaşmanın məqsədləri. Sosial işçinin funksiyası və rolu. Sosial işçi ilə müştəri arasındakı əlaqə. Fərdi mərkəzli yanaşmada tətbiqetmə. Sosial işdə fərdi yanaşmanın tətbiq sahələri. Müştəri ilə peşəkar münasibət. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Turan, N.(1999) Sosyal Kişisel Çalışma, Birey ve Aile İçin Sosyal Hizmet, Ed. Veli Duyan, Aydınlar Matbaacılık, Ankara. |
| 14 | **Quruluş (struktur) yanaşması** | Struktur və Post-struktur nəzəriyyə: mahiyyəti və əhatə dairəsi. Konstruktivist metod. Post-strukturizm. Struktur sosial işin tənqidi. | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Özgür, Ö. (2015) "Yapısal Kuram", Sosyal Hizmet Kuram ve Yaklaşımları, Atatürk Üniversitesi Açıköğretim Fakültesi Yayını, ss. 1-20. |

| | | | |
|---|---|---|---|
| 15 | **İdraki davranış yanaşması** | İdraki davranış yanaşmasının tarixi inkişafı. Koqnitiv davranış terapiyasının inkişafı. Koqnitiv davranış terapiyasının əsas xüsusiyyətləri. İdraki davranış terapiyaları. Koqnitiv terapiyada istifadə olunan üsullar. Koqnitiv terapiya tətbiqi. İdraki davranış yanaşması və sosial iş | **1.** Taner Artan (2015) Sosyal Hizmet Kuramları, auzefkitap, İstanbul.<br>**2.** Payne, Malcolm, (1997). Modern Social Work Theory. , MacMillan. |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tədris semestr əsaslı təşkil oluncaq və bakalavr səviyyəsi üzrə qiymətləndirmə hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal tələbələrin semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında formalaşır.

Hər semestrin əvvəlində bakalavrlara təqdim edilən sillabuslarda hər bir fənn üzrə aktivlik balının necə formalaşması qaydası göstərilir.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal

- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

B = (((b1+b2+b3+...+bn)/s)*m)/10

Burada,
B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr və magistrantlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavr və ya magistrantların cavab verməsi üçün imkan yaradır.

Tələbələr semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümumiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə*** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil

olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat səviyyəsi üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

***Aralıq qiymətləndirmə*** - test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət

tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

Tədris növlərinə müvafiq olaraq fənlər üzrə ***cari və aralıq qiymətləndirmə*** aşağıdakı qaydada və bal nisbətlərində həyata keçirilir:

Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XIII. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

## XIV. Fənn üzrə qiymətləndirmə

**Biliyin qiymətləndirilməsi sistemi**

| | | |
|---|---|---|
| Tələbənin aktivliyi | 20 bal | 20% |
| Ara qiymətləndirmə | 30 bal | 30 % |
| Aralıq qiymətləndirmə | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə baglı tələbənin hər-hansı şikayəti olarsa, o Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**Tərtib etdi:** **i.ü.f.d.,dos.Məmmədov Elşən Qardaşxan oğlu**